# “Kapital Bank”a məxsus “BirBank” ödəniş terminalları ilə bağlı kampaniya

1. “Kapital Bank”a məxsus “BirBank” ödəniş terminalları ilə bağlı kampaniyadan (bundan sonra: kampaniya) həmin ödəniş terminallarında kommunal ödəniş edən hər kəs yararlana bilər.

2. Kampaniya **31 may (saat 12:00-dan) – 30 iyun 2021-ci il** tarixləri aralığında (hər iki gün daxil) keçərli olacaq.

3. Kampaniya şərtlərinə əsasən, müştərilərə “BirBank” ödəniş terminallarında edəcəkləri istənilən məbləğdə kommunal ödənişlərə görə Azercell və ya Bakcell-dən 50 danışıq dəqiqəsi və 100 MB internet qazandıqları bildiriləcək və hədiyyəni əldə etmək üçün mobil telefon nömrələrini (Azercell və ya Bakcell) daxil etmələri istəniləcək. 3 iş günü ərzində qeyd edilmiş mobil telefon nömrəsinə 50 danışıq dəqiqəsi və 100 MB internet paketini aktivləşdirmək üçün SMS vasitəsilə kodlar göndəriləcək.

4. Qeyd edək ki, kampaniya yalnız **“BirBank” ödəniş terminallarında** edilmiş kommunal ödənişlərə şamil olunur. “BirBank” mobil tətbiqində edilmiş kommunal ödənişlər kampaniyada iştirak etmir.

5. Kampaniya şərtlərinə əsasən, bir mobil telefon nömrəsi ilə bir kommunal ödəniş növü üzrə yalnız bir dəfə dəqiqə və meqabayt hədiyyə qazanmaq mümkündür. Məsələn, eyni telefon nömrəsi daxil edərək “Azəriqaz” və “Azərsu” ödənişləri etsəniz, hər iki ödənişə görə də ayrı-ayrılıqda hədiyyə qazanacaqsınız. Amma eyni telefon nömrəsi daxil edərək 2 dəfə “Azəriqaz” ödənişi etdikdə yalnız bir dəfə hədiyyə qazanacaqsınız.

6. Həmçinin kampaniyadan bir abunəçi kodu ilə (kommunal növü üzrə) yalnız bir dəfə yararlanmaq mümkündür. Məsələn, müştəri 10 AZN məbləğində “Azərsu” ödənişini 5 AZN – 5 AZN olmaqla iki dəfəyə ödəyərsə, yalnız birinci ödənişdən hədiyyə qazanacaq.

7. Kampaniya aşağıdakı ödənişlərə şamil olunur:

   - “Azəriqaz”
   - “Azərişıq”

- “Azəristilik”
- “Azərsu”
- “Naxçıvanqaz”
- “Naxçıvanişıq”
- “Naxçıvansu”